

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 177 (21.587)

22 sentyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevirə səfərə gedərkən yolüstü Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir-Ucar-Yevlax hissəsinin açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevir şəhərinə səfərə gedib.

Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimində, Mingəçevir Şəhər Tarix Muzeyinin açılışında iştirak edib, Mingəçevir şəhərində aparılan abadlıq və tikinti işləri ilə tanış olub.

* * *

Sentyabrın 21-də Müdafiə Sənayesi Nazirliyi "Şərq" İstehsalat Birliyinin "AZAD Sistemlər" müəssisəsində hazırlanan müasir kəşfiyyat element bazasına və taktiki məhvedici hücum sisteminə malik "Zərbə" pilotsuz uçuş aparatlarının təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



## Mərkəzi Seçki Komissiyasında seminar-treninq keçirilib



*Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasında muxtar respublikada fəaliyyət göstərən 7 seçki dairəsinin dairə seçki komissiyalarının sədrlərinin, veb-kameralı seçki məntəqələrinin məntəqə seçki komissiyalarının sədr və katiblərinin, həmçinin seçkilərə 5 gün qalmışadək yaradılan 24 qapalı seçki məntəqəsinin məntəqə seçki komissiyalarının sədr, katib və üzvlərinin iştirakı ilə seminar-treninq keçirilib.*

Tədbiri giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov qeyd edib ki, sentyabrın 26-da keçiriləcək referenduma hazırlıq prosesi davam edir. Ölkəmizdə keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərdən geniş istifadə edilir ki, bu da seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır. Bildirilib ki, muxtar respublikada fəaliyyət göstərən hər bir seçki dairəsinin 5 məntəqəsində olmaqla, cəmi 35 seçki məntəqəsində müşahidə kameraları quraşdırılıb, sınaqdan keçirilərək hazır vəziyyətə gətirilib. Səsvermə günü həmin seçki məntəqələrində səsvermənin gedişini internet vasitəsilə izləmək mümkün olacaqdır. Seçki məntəqələrində veb-kameraların quraşdırılması Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının "Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsinə dair Qaydalar"a uyğun olaraq təşkil edilib.

Mərkəzi Seçki Komissiyasının sədri referendum günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri barədə məlumat verib.

Referendum günü məntəqə seçki komissiyalarının fəaliyyəti, referendum bülleteninin doldurulması qaydaları barədə danışan Mərkəzi Seçki Komissiyasının katibi Elnur Eyvazov bildirib ki, sentyabrın 26-da səsvermə saat $8^{00}$-dan $19^{00}$-a kimi keçiriləcəkdir.

Qeyd olunub ki, referendum bülleteni digər seçkilərdə tərtib olunan səsvermə bülletenlərindən fərqlənir. Konstitusiyada referenduma çıxarılan 29 maddə üzrə təklif olunan dəyişikliklər səsvermə bülletenində ayrı-ayrılıqda əks olunub. Bu 29 maddə bülletendə alt-alta sıralanıb və hər bir maddənin qarşısında da "hə" və "yox" cavablarının altında boş kvadratlar qoyulub. Seçici bülleteni aldıqdan sonra boş səsvermə kabinəsinə keçir. Seçici oxuduğu hər maddənin qarşısındakı cavab variantlarından, yəni "hə" və ya "yox" cavablarının birinin altındakı boş kvadrata qələmlə müəyyən bir işarə qoyur və yaxud kvadratın kənarına çıxmayacaq şəkildə içərisini qələmlə qaralayır. Seçici bülleteni doldurarkən səsinin etibarsız sayılmasını istəmirsə, hər maddənin qarşısındakı "hə" və ya "yox" cavablarından yalnız birini işarələməlidir. Əgər seçici "hə" və "yox" cavablarının hər ikisinə işarə qoyarsa və ya heç bir cavaba işarə qoymazsa o zaman o maddə üzrə səsi etibarsız hesab olunur.

7 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyasının aparıcı məsləhətçisi Hüseyn Qasımov çıxışında qeyd edib ki, məntəqə seçki komissiyasının protokolu Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış üç nüsxədən ibarət xüsusi dövlət sənədidir. Nüsxələrdən birincisi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına, ikincisi müvafiq dairə seçki komissiyasına təhvil verilir. Üçüncüsü isə məntəqədə məlumat lövhəsindən asılır. Protokolu son dərəcə səliqəli tərtib etmək, həddindən artıq diqqətli olmaq vacibdir. Protokol 8 bənddən ibarətdir. Protokol tərtib olunan zaman dairənin nömrəsi, məntəqənin nömrəsi və ünvanı dəqiq və səliqəli şəkildə başlıqda qeyd edilir. Bundan sonra protokolun bəndləri doldurulur. Protokolun yeddinci bəndi doldurulana qədər lazım olan rəqəmlərin yazılması üçün səsvermə qutularının açılması tələb olunmur.

Tədbirdə dairə seçki komissiyalarının sədrləri veb-kameralı seçki məntəqələrinin və seçkilərə 5 gün qalmışadək yaradılan 24 seçki məntəqəsinin referenduma hazırlıqlarının vəziyyəti barədə məlumat veriblər.

Sonra seçki komissiyaları üzvlərini maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov yekun vurub.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti**

## Beynəlxalq Sülh Günü münasibətilə tədbir keçirilib

***21 sentyabr – Beynəlxalq Sülh Günü münasibətilə Naxçıvan Dövlət Universitetində "Dünyada və regionda sülhün qorunmasında gənclərin rolu" mövzusunda tədbir keçirilib.***

Tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov belə tədbirlərin gənclərdə hərtərəfli dünyagörüş, intellekt və sağlam təfəkkür formalaşdırdığını vurğulayıb. Qeyd olunub ki, sülh bu gün bütün tərəqqipərvər bəşəriyyəti düşündürən məsələdir və ölkəmiz üçün xüsusi aktuallıq kəsb edir. Çünki torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyondan çox qaçqın və məcburi köçkünümüz var. Təəssüf ki, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın təcavüzü nəticəsində öz vətənlərində qaçqın və məcburi köçkünə çevriliblər.

Rektor bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra torpaqlarımızın işğalının qarşısı alınıb, 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalanıb, ölkədə sabitliyə nail olunub. Bunu həm də dövlətimizin sülh arzusunun ifadəsi kimi dəyərləndirən rektor belə tədbirlərin keçirilməsinin böyük əhəmiyyət daşıdığını vurğulayıb.



Tədbirdə universitetin İngilis dili və metodika kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mirhəsən Eminov, Hüquq fənləri kafedrasının baş müəllimi, hüquqşünas Şamxal Hüseynov çıxışlarında bildiriblər ki, hər zaman terroru pisləyən, sülhün tərəfdarı olan ölkə Prezidenti cənab İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür.

Diskussiya şəklində davam edən tədbirdə dövlət gənclər siyasəti barədə də ətraflı danışılıb, tələbələrin sualları cavablandırılıb.

**Mina QASIMOVA**

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə nazirlik tərəfindən bu günədək bir sıra işlər görülüb.*

## "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşr olunması ilə bağlı işlər yekunlaşmaq üzrədir

İlkin mərhələdə atlasın nəşr olunması ilə bağlı redaksiya heyətinin işçi qrupu yaradılıb, atlasın bölmələri, işçi qrupun tədbirləri planının layihəsi müəyyən edilib və redaksiya heyətinin hər bir üzvü üçün işçi qovluqlar hazırlanıb.

Aprel ayının ortalarından atlasın müvafiq bölmələrinin üzərində işlərə başlanılıb, bu məqsədlə AMEA Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində, Səhiyyə, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat nazirliklərində, Dövlət Baytarlıq Xidmətində, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində, Dövlət Energetika Agentliyində müzakirələrə başlanılıb.

Məlumatda bildirilir ki, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşr olunması ilə bağlı AMEA Coğrafiya İnstitutu ilə əlaqələr qurularaq texniki imkanlar müzakirə edilib, respublika Seysmoloji Xidmət Mərkəzindən son 100 ildə Naxçıvan Muxtar Respublikası ərazisində və qonşu dövlətlərin ona bitişik ərazilərində baş vermiş zəlzələlərin kataloqu əldə olunub.

Məlumatda o da vurğulanır ki, atlas giriş hissədən və altı bölmədən ibarətdir. Giriş hissədə muxtar respublikada son 25 ildə (1991-2015-ci illər) baş vermiş təbii fəlakətlərin, texnogen qəzaların statistikası, əhaliyə və iqtisadiyyata dəymiş maddi zərər hesablanıb, o cümlədən ölkəmizdə və qonşu dövlətlərin bizə yaxın ərazilərində baş vermiş təbii və texnogen xarakterli fövqəladə halların təhlili aparılıb.

Birinci bölmədə muxtar respublikanın coğrafi-iqtisadi xüsusiyyətləri, inzibati ərazi bölgüsü və əhalisi ilə bağlı məlumatlar işlənilib, şəhər və rayonlarımızın təbii və texnogen fövqəladə hallar mənbələrinə bağlılığı öyrənilib.

İkinci bölmədə muxtar respublikada fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə vahid dövlət sisteminin idarəetmə orqanlarının, mülki müdafiə qüvvə və vasitələrinin tərkibi, fövqəladə halların proqnozlaşdırılması, monitorinqi, laboratoriya və müşahidə nəzarəti sistemlərinin strukturu müəyyən edilib.

Üçüncü bölmədə muxtar respublika ərazisində ehtimal olunan təbii xarakterli fövqəladə hallar (zəlzələ, sel, sürüşmə, qrunt suları, su və külək eroziyası, torpaqların şoranlaşması, duman, anomal isti və soyuq hava temperaturları, ildırım və şimşək, leysan yağışları, güclü külək, doluvurma, güclü qar, təbii yanğınlar və sair) muxtar respublikanın fiziki-coğrafi xüsusiyyətləri nəzərə alınmaqla elmi cəhətdən qiymətləndirilib və hər bir hal üçün profilaktik tədbirlər müəyyənləşdirilib.

Dördüncü bölmədə aqroiqlim təhlükələri və riskləri ilə bağlı muxtar respublikada quraqlıq, şaxta və donvurma, güclü külək, doluvurma, leysan yağışları, sel və digər təbii amillərin kənd təsərrüfatı bitkilərinin inkişafına təsir göstərməsi üzrə bəndlərin layihələri hazırlanıb.

Beşinci bölmədə texnogen xarakterli fövqəladə halların təhlükələri və riskləri (avtomobil, dəmir yolu və hava nəqliyyatında qəzalar, bina və qurğularda yanğınlar, neft və qaz müəssisələrində yanğın-partlayışlar, dağ-mədən obyektlərində, elektrik təchizatı sistemlərində qəzalar, hidrotexniki qurğularda təhlükələr, Metsamor AES-lə bağlı radiasiya təhlükəsi) qiymətləndirilib.

Altıncı bölmədə əhali, kənd təsərrüfatı heyvanları və quşları arasında yayıla biləcək ən təhlükəli yoluxucu xəstəliklər, həmçinin kənd təsərrüfatı bitkilərinin ziyanverici həşəratlarla və gəmiricilərlə zədələnmə təhlükələri (QİÇS, aktiv vərəm, bakterial dizenteriya, brusellyoz, virus hepatitləri A,B,C, quduzluq, dabaq, kənd təsərrüfatı heyvanlarının vərəmi, quş qripi, dənli bitkilərin pas xəstəliyi, şıqqıldaq böcəklər, ziyankar bağacıq) qiymətləndirilib.

Bunlardan əlavə, atlasda nəzərdə tutulmuş xəritələrin işlənilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına sorğular verilərək müvafiq hesabatlar və statistik məlumatlar alınıb, əhalinin məskunlaşması, sıxlığı, təbii və texnogen mənşəli fövqəladə hal təhlükələrinin və müxtəlif xəstəliklərin xəritələri hazırlanıb, atlasla bağlı müəyyən fotoşəkillər çəkilib və müvafiq diaqramlar işlənib.

Məlumatda həmçinin qeyd olunur ki, atlasın izahedici yazıları yekunlaşdırılaraq AMEA Naxçıvan Bölməsinə oxunuşa təqdim olunub. Atlasla bağlı görülən işlərin oktyabr ayının 20-dək başa çatdırılması nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

***Cəmiyyətin sosial-mədəni inkişaf göstəriciləri arasında mühüm yer tutan turizmə maraq artmaqdadır. Dövlətimizin turizmin inkişafına göstərdiyi diqqət ilk olaraq bu sahədən hər bir vətəndaşın faydalanması və ölkəmizin gözəlliklərinin, tarixi-mədəni zənginliklərinin dünyaya tanıdılması məqsədi daşıyır. Muxtar respublikamızda da mövcud olan rəngarəng turizm ehtiyatları və müasir turizm infrastrukturu bu mühüm sahənin inkişafı üçün hərtərəfli şərait yaradır.***

# Yay turizm mövsümü başa çatır

## *Turizmin inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələr necə yerinə yetirilib?*



Cari il mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilmiş müşavirədə deyildiyi kimi turizmin inkişafı üçün sahib olduğumuz potensialdan səmərəli istifadə olunması və güclü təşviqat mexanizminin qurulması tələb olunur. Başqa sözlə, turizmin inkişafına bütün cəmiyyət olaraq maraqlıyıqsa, onda hər birimiz də bu sahənin inkişafı üçün üzərimizə düşən vəzifəni yerinə yetirməyə çalışmalıyıq.

Turizm çox unikal bir sahədir. Məhz buna görə də elmi ədəbiyyatlarda turizmi yeni dünyanın yeddi möcüzəsindən biri və gözəgörünməz ixracat forması adlandırırlar. Turizmin yüksək səviyyədə inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, bu sahədə uğur qazanmaq üçün cazibədar ehtiyatlarla yanaşı, həm də bu ehtiyatlardan istifadəyə imkan verən işgüzar potensial tələb olunur. Bu potensial bizdə də var. Bu həm turizm ehtiyatlarından istifadəyə şərait yaradan müasir infrastruktur, həm də bütün bunları hərəkətə gətirib iqtisadi dövriyyəyə cəlb edə bilən maddi-texniki baza və kadr təminatıdır. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı üçün yaradılan şərait göz qabağındadır. Qalır təkcə bu şəraitdən səmərəli istifadə edib, turizmdən gözlədiyimiz nəticələrə nail olmaq. Biz də builki yay turizm mövsümündə bütün bunlardan necə istifadə olunduğunu öyrənmək və yuxarıda adıçəkilən müşavirədə aidiyyəti təşkilatlara verilmiş tapşırıqların icrası barədə oxucuları məlumatlandırmaq üçün həmin qurumların bir neçəsinə elektron məktubla müraciət etdik.

Turizm öz təbiətinə görə gəncləri daha çox maraqlandıran və eyni zamanda turizm-tanıtım işində gənclərin fəallığına həssas olan bir sahədir. Məhz bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun redaksiyamıza göndərdiyi məlumatda cari ilin aprel, may, iyun və iyul aylarında fond tərəfindən "Naxçıvanı tanıyaq" devizi altında gənclərin Naxçıvanqalaya, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğu və Batabat Astrofizika Rəsədxanasına, Əlincəqalaya səfərlərinin təşkil olunduğu bildirilir. Bunlardan əlavə, ötən dövrdə 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında Şahbuz və Babək rayon gənclərinin iştirakı ilə Batabatda təmizlik aksiyası, Ordubad və Culfa rayon gənclərinin iştirakı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində maarifləndirici aksiya, Şərur, Kəngərli və Sədərək rayonlarının parklarında gənclərin iştirakı ilə maarifləndirici tədbir və güləkmə aksiyası, Naxçıvan şəhər gənclərinin iştirakı ilə Uzunoba Su Anbarı ətrafında "Hərəmiz bir ağac əkək" aksiyası, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında gənclərin iştirakı ilə "Ətraf mühiti necə qoruyuruq" mövzusunda diskussiya keçirilib, "Yaşıllıqlara qulluq" aksiyası çərçivəsində Naxçıvan Dövlət Universiteti ərazisində toplanmış tullantıların yandırıldığı tonqalın ətrafında gənclərin əhaliyə müraciəti qəbul olunub. Fond tərəfindən iyunun 29-da gənclər arasında "Naxçıvanın turizm imkanları" mövzusunda foto-müsabiqə və 2 aprel-5 iyun tarixləri arasında həftəsonu günlərində muxtar respublikanın məktəblilərindən, sağlamlıq imkanları məhdud uşaqlar və aztəminatlı ailələrin uşaqlarından, ümumilikdə, 405 nəfərin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunub. Bununla yanaşı, 16 iyundan 13 sentyabra qədər Ağbulaqda muxtar respublikanın idman federasiyaları üzvləri olan 1080 idmançının 2 günlük istirahəti təşkil olunub, sosial şəbəkələrdə turizmlə bağlı xeyli material yerləşdirilib.

Muxtar respublikanın gənclərlə iş üzrə digər mühüm dövlət orqanı olan Gənclər və İdman Nazirliyi də bu dövrdə müşavirədə verilmiş tapşırıqların icrasına uyğun olaraq naxçıvanlı gənclərin daxili turizm səfərlərini diqqətdə saxlayıb, bu məqsədlə yuxarıda qeyd etdiyimiz müxtəlif tədbirlərdə məktəbli və idmançı gənclərin iştirakını təmin edib. Bundan başqa, nazirliyin əməkdaşları sosial şəbəkələrdə öz fəallıqlarını daha da artırıblar.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən redaksiyamıza daxil olmuş məlumatda verilmiş tapşırığın icrasına uyğun olaraq Təhsil, Gənclər və İdman nazirlikləri ilə birgə aprel ayında sağlamlıq imkanları məhdud 39 məktəbli uşağın 6 valideynin müşayiəti ilə, mayın 14-də aztəminatlı ailələrin 45 məktəbli uşağının, iyulun 14-də və avqustun 15-də fiziki imkanları məhdud 90 idmançının Ağbulaq İstirahət Mərkəzində istirahətlərinin təşkil olunduğu bildirilir.

Turizm tanıtım, reklam və təbliğat işlərinə çox həssasdır. Məhz buna görə də müşavirədə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm, eləcə də Rabitə və Yeni Texnologiyalar nazirlikləri qarşısında bu istiqamətdə mühüm vəzifələr qoyulub, konkret olaraq muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursları internetdə yerləşdirmək və bu məlumatların daim yenilənməsini təmin etmək, dövlət təşkilatlarının internet səhifələrində Naxçıvanın turizm potensialı ilə bağlı bölmələr yaratmaq tapşırığı verilib.

Bu tapşırıqların icra vəziyyəti ilə bağlı Mədəniyyət və Turizm, Rabitə və Yeni Texnologiyalar nazirlikləri tərəfindən redaksiyamıza göndərilmiş məlumatlarda Naxçıvan Turizm İnformasiya Mərkəzinin fəaliyyətinin genişləndirildiyi, onun Azərbaycan, rus və ingilis dillərində saytının yaradıldığı və yaradılmış elektron resursların populyar sosial şəbəkələr vasitəsilə dünya ilə paylaşıldığı bildirilir. Bundan əlavə, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin saytının, bir sıra turizm marşrutlarının reklam-informasiya materiallarının hazırlanması üzərində işlər davam etdirilir. Bütün bunlar muxtar respublikamızın turizm potensialının tanıdılması baxımından təqdiredici işlərdir.

Müşavirədə Naxçıvanın turizm imkanlarının təbliği məqsədilə proqram hazırlanması, müxtəlif layihələrin həyata keçirilməsi və gənclərin sosial şəbəkələrdə muxtar respublikanın turizm potensialının təbliğində fəallığının artırılması Təhsil Nazirliyi qarşısında bir vəzifə kimi qoyulub. Nazirlikdən aldığımız məlumatda bu məqsədlə müvafiq təşkilatlarla birgə həyata keçirilmiş tədbirlər haqqında məlumat verilsə də, sosial şəbəkələrdə görülmüş işlərdən bəhs olunmur.

Muxtar respublikamızda müalicə turizminin inkişafı üçün yaxşı perspektivlər vardır. Bu baxımdan müşavirədə muxtar respublikamızda müalicə-sağlamlıq turizminin inkişafı məqsədilə Səhiyyə Nazirliyi qarşısında da vəzifələr qoyulub, Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanasının imkanları ilə bağlı elektron resursların hazırlanması və internetdə yerləşdirilməsi tapşırığı verilib. İnanırıq ki, bu məsələnin həlli ilə Səhiyyə Nazirliyi qarşıdakı dövrdə ciddi məşğul olacaq.

Turizm iqtisadiyyatın mühüm bir sahəsi, beynəlxalq turizmin gəlmə tipi isə ölkə ixracatının mühüm bir hissəsidir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumatda bu fikir tam əksinə göstərilsə də, ancaq turizmə dair istənilən dərs vəsaitində gəlmə turizmin inkişafının məhz ixracyönümlü siyasətə xidmət etdiyi açıq şəkildə izah olunur. Muxtar respublikamızda da daxili və gəlmə turizmin inkişafından məhz regional inkişaf, yeni iş yerlərinin yaradılması və valyuta gəlirlərinin əldə olunması kimi mühüm iqtisadi nəticələr gözlənilir. Elə bu məqsədlə müşavirədə İqtisadiyyat Nazirliyinə muxtar respublikada turizm sahibkarlığının inkişaf etdirilməsi, özəl sektor tərəfindən real təkliflər ortaya qoyulması, turizmlə məşğul olan sahibkarlara müvafiq tövsiyələr verilməsi, biznes-planların işlənilməsinə və onların tətbiqinə çalışılması, habelə Azərbaycanı, eləcə də Naxçıvanı tanıdan suvenirlərin, hədiyyəlik xatirə əşyalarının hazırlanması və satışının diqqətdə saxlanılması, ölkəmizdə və xaricdə təşkil olunan müxtəlif sərgilərdə Naxçıvanın turizm potensialının nümayiş etdirilməsi tapşırığı verilib. Nazirlikdən aldığımız məlumatda turizm sahibkarlığının inkişafı üçün qarşıya qoyulan vəzifələrin icrasından danışılmasa da, hədiyyəlik əşya hazırlanması və satışı, eləcə də xarici ölkələrdə keçirilən sərgilərdəki iştiraklar baxımından xeyli işlərin görüldüyü qeyd olunur. Qarşıdakı dövrdə turizm üzrə biznes-planların işlənilməsi, muxtar respublikamıza məxsus turizm məhsulunun hazırlanması və turistlərə təklifi istiqamətində müşavirədə verilmiş tapşırıqların tam yerinə yetirilməsi üçün işlər görüləcəkdir.

Hər sahədə olduğu kimi, turizmin də inkişafı bu sahədə çalışan yüksəkixtisaslı kadrlardan çox asılıdır. Elə bu səbəbdəndir ki, müşavirədə turizm sahəsində çalışan kadrların tarix, coğrafiya, mədəniyyətşünaslıq sahələrini, zəruri xarici dilləri bilməsi və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarığına yiyələnməsi vurğulanıb, bu məqsədlə Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisası üzrə ali təhsilli kadr hazırlığı səviyyəsinin artırılması, peşə və ixtisas səviyyələrinin yüksəldilməsi üçün metodiki vəsaitlər hazırlanması, praktik məşğələlər təşkil edilməsi tapşırığı verilib.

Naxçıvan Dövlət Universitetinə göndərdiyimiz sorğuya bu ali təhsil müəssisəsindəki Bələdiyyə və turizm kafedrasının 2015-2016-cı tədris ilindəki gördüyü işlərin hesabatı kimi cavab verilib. Məlumatda kafedranın yaradıldığı 2004-cü ildən bəri müxtəlif illərdə keçirilmiş bir sıra tədbirlərdən, tədris prosesindəki şəffaflıqdan və Bolonya prinsipləri əsasında keçilən dərslərdən danışılsa da, metodiki vəsaitlər hazırlanması barədə konkret bir cavab yoxdur. Ancaq kafedranın nəzdindəki "Gənc turistlər dərnəyi", "Tələbə turizm assosiasiyası"nın fəaliyyəti, habelə tələbələrin Zəngəzur Milli Parkına, Əlincə qalasına, Şahbuz və Ordubad şəhərlərinə təşkil olunmuş ekskursiyaları burada praktik məşğələlərə daha çox diqqət yetirildiyini göstərir. İnanırıq ki, gələcəkdə Naxçıvan Dövlət Universitetində turizm üzrə metodiki vəsaitlər hazırlanmasına da diqqət artırılacaqdır.

"Naxçıvan" Universitetində müşavirədə verilmiş tapşırıqların icrası istiqamətində Turizm İnformasiya Mərkəzi yaradılıb, Nəqliyyat Nazirliyi ilə birgə taksi sürücülərinin maarifləndirilməsi üçün kurslar təşkil olunub. Turizm və otelçilik ixtisası üzrə təhsil alan 3 nəfər tələbənin Azərbaycan Turizm və Menecment Universitetində keçirilmiş konfransda iştirakı təmin edilib. Bundan əlavə, "Naxçıvan" Universitetinin Turizm İnformasiya Mərkəzinin nəzdində yaradılmış "Gənc tur" qurumunun təqdimat mərasimi olub, fəal gənclərin iştirakı ilə "Yurdumuzu tanıyaq" layihəsi həyata keçirilib. Bu ali təhsil ocağında turizmin tədrisi ilə məşğul olan müəllimlərin 1 dərs vəsaiti və 10-dan artıq fənn proqramı dərc edilib, 3 elmi məqaləsi ABŞ və Almaniyanın indeksli jurnallarında çap olunub.

Turistlərin gəldikləri yerdə rahat hərəkəti və dolğun təəssürat almaları üçün nümunəvi nəqliyyat və xüsusən də taksi xidməti çox vacibdir. Müşavirədə bu məqama diqqət çəkən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi qarşısında da konkret vəzifələr qoyaraq sürücülərin yaşadıqları ərazinin tarixi, məişəti, təbiəti, mədəni ünvanları ilə bağlı ümumi biliklərə malik olması zərurətini vurğulayıb. Bununla bağlı nazirlikdən aldığımız məlumatda bildirilir ki, cari ilin mart ayından başlayaraq muxtar respublikada taksi fəaliyyəti göstərən nəqliyyat vasitələrinin sürücüləri üçün muzey günlərinin qrafiki tərtib olunub, qrafikə əsasən hər ay 5 dəfə müxtəlif qruplar şəklində taksi sürücülərinin muzeylərdə seminar-məlumatlandırma işi təşkil edilib. Habelə "Naxçıvan" Universitetində Turizm İnformasiya Mərkəzinin tədris proqramında turizmə yararlı sürücülər üçün təşkil olunan kursda 20 nəfər sürücünün iştirakı təmin edilib. Sürücülərə kurs ərzində muxtar respublikanın bütün rayonlarında yerləşən tarixi abidələr, muzeylər, habelə digər görkəmli yerlər haqqında məlumat verilib, ingilis və rus dillərində qarşılama terminologiyası öyrədilib, kursu müvəffəqiyyətlə bitirən sürücülərə sertifikatlar təqdim olunub. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə turizmin inkişafı ilə əlaqədar taksi sürücülərinin 2 günlük seminar-müşavirəsi keçirilib, sürücülərə muxtar respublikanın turizm mərkəzləri, tarixi abidələri haqqında məlumatlar verilib.

Müşahidələr göstərir ki, bu sahədə hələ çox iş görülməlidir. Belə ki, sürücülərin bu barədə təsəvvürlərini öyrənmək üçün onlar arasında kiçik bir sorğu apardıq. Nəticədə, müraciət etdiyimiz taksi sürücülərinin bir qisminin bu barədə xeyli məlumatlı olduğunu görsək də, bir çoxunun Naxçıvandakı muzeylərin adlarını, tarixi abidələrin yerlərini və təxmini yaşını bilmədiyini müşahidə etdik.

*Builki yay turizm mövsümü başa çatmaq üzrədir. Muxtar respublikamız bu mövsümdən nə əldə etdi, hansı təcrübəni qazandı? Kim bu mövsümdə bu vacib sahənin işinə töhfə vermək üçün nə etdi, kim daha çox əməli iş gördü, kimlər bu işlərdən bir az geri qaldı? Qoy hər bir kəs özü bu suallara cavab versin. Ancaq onu deyə bilərik ki, ötən dövrdə bu sahənin inkişafı üçün xeyli iş görülüb. Bunun nəticəsidir ki, yay turizm mövsümündə Naxçıvana ötən illə müqayisədə daha çox turist gəlib. Görülmüş işlərin təhlil olunub nəticə çıxarılması ümumi bir məqsədə, ölkəmizin və diyarımızın inkişafına xidmət edir.*

**Əli CABBAROV**

# Əlincəyə gedən yol

## *İkinci yazı*



Şərqin qapısı sayılan Naxçıvana qədəm qoyan kimi özümdən asılı olmadan iç dünyama bir nəzər saldım. İnanın ki, bu bir daxili tələbat idi. Mən illər öncə gördüklərimlə indi gördüklərimi paralelləşdirmək, müqayisə aparmaq istəyirdim. Çünki indiki durumda çaşıb qalmışdım, gözlərimə inana bilmirdim. Üstəlik, mətbu orqanlarda qarşılaşdığım informasiyalar məni sual qarşısında qoymuşdu. Öz-özümə sual verdim:

– Doğrudanmı oxuduqlarımla gördüklərim bu qədər fərqlidi? Və yaxud da bu olanları necə qara rəngdə təqdim etmək olar?

Bəli, konkret suallar idi və məndən də konkret cavab gözləyirdi. Ona görə də özümü səfərbər etdim. Necə deyərlər, vicdanımın səsini, ağlımın kəsdiklərini, gözlərimin gördüklərini, qulaqlarımın eşitdiklərini bir nöqtəyə, bir boxçaya yığmağa başladım.

Artıq ərazisində olduğum Babək rayonunun yolları bir mənzərə idi. Uzanırdı müxtəlif istiqamətlərə. Bu yollarla Naxçıvanın müxtəlif bölgələrinə səfər etmək mümkün idi. Amma mənim Naxçıvana gəlməkdə ən böyük arzum, istəyim öncə iki ünvanı ziyarət etmək, iki yerdə torpağı, daşı öpmək idi. Bunlardan biri minillikləri arxada qoyan Əshabi-Kəhf, digəri isə Əlincə qalası idi. Mənim inancıma, mənim daxili ehtiyacıma görə, dünyanın ən müqəddəs yerləri məhz bu iki ünvan idi. Və mən də zaman-zaman bu yerləri görmək arzusuyla yaşamışdım.

Doğrudur, dəfələrlə sovet dönəmində Naxçıvanda olsam da, dostların sayəsində daha çox bulaq başlarını, yeyib, içib əylənmək guşələrini gəzib görmüşdüm. Necə deyərlər, o müqəddəs ünvanların torpağını öpməyə “zamanım” olmamışdı. Bu səfərdə isə öncə ziyarəti, sonra digər məsələləri planlaşdırmışdım. Bax elə yolumu da qurduğum plan üzrə salıb, öncə Əshabi-Kəhfə doğru üz tutdum…

Bir məqamı da xatırladım. Naxçıvana gəlməmişdən öncə həmsöhbət olduğum dostum, iş adamı Qabil müəllim bildirmişdi ki, indi Əshabi-Kəhfə gedənlər gözlərinə inanmırlar. Çünki 1992-ci ilin yayından başlayaraq burada çox böyük iməciliklər həyata keçirilib. Həm ulu öndərimiz Naxçıvan Ali Məclisinə rəhbərlik edəndə, bu gün isə Ali Məclisin Sədri Vasif Talıbovun rəhbərliyi altında bütün tarixi yerlərlə yanaşı, Əshabi-Kəhfdə də əsl torpaq təəssübkeşliyi, tarix sevgisiylə, üstəlik, içdən gələn inancla bərpa işləri görülüb. Bu gün oraya gələn ziyarətçilərin heç bir problemi yoxdur!

Bəli, mən bu informasiya ilə gedirəm Əshabi-Kəhfə. Yollara söz ola bilməz. Kəndlərin içərisindən keçən yollar o qədər rahatdır ki, bu rahatlıq təyyarədən yenicə düşmüş mənə sanki layla çalır, yuxu gətirir. Amma yuxuya təslim olan deyiləm. Əksinə, gözlərimi dörd açıb baxıram və hər gördüyümü də ürəyimdə özümdən asılı olmadan uca səslə təkrarlayıram. Hiss edirəm ki, bu mənzərəyə alışmış sürücü mənə bir az fərqli nəzərlərlə baxır. Qoy baxsın! Mən heyrət içərisindəyəm. Azərbaycanın heç bir guşəsində görmədiyim, hətta Bakının bəzi mərkəzi yerlərində də rast gəlmədiyim yollardan keçib gedirəm. Təkcə yol örtüyü yox, onun kənarları da adamda xoş təəssürat yaradır. Diqqət yetirirəm: nə havada “uçuşan” sellofan torba var, nə də yol kənarına içilib atılmış şüşə və ya plastmas qablar. Hətta düşünürəm ki, bəlkə, burda su, şirə içmirlər və yaxud uşaqlara dondurma, müxtəlif şirniyyatlar, tum alıb vermirlər. Uca səslə təkrarladığım bu sualların cavablarını sürücü qaytarır mənə:

– Müəllim, görürəm nabələdsiniz. Amma burda təmizliyə xüsusi fikir verilir. Hamı bilir ki, yola-rizə nə atsa, sabah da onu özü yığıb toplayacaq. Bilirsiniz necə?

Mənim təəccübümü hiss edib sualı özü verir və cavabını da mənə eşitdirir:

– Burda hər kəsin vicdanı özünə nəzarətçidi. Hər kəs öz məsuliyyətini dərk edir. Eyni zamanda Naxçıvanda tez-tez iməciliklər də keçirilir. Bütün el-oba yaşıllığın, təmizliyin, səliqə-sahmanın iştirakçısına çevrilir. Ona görə də hamı iməcilikdən öncə də öz vətəndaşlıq borcunu yerinə yetirir və zibili, əlindəki artıq olan nədirsə, onu tullantı qutularına atır. Görürsünüz, yolboyu tullantı qutuları qoyulub. Bu həm onun üçün rahat olur, həm də təmizliyə baxanlar üçün…

Bəli, bax buna deyərəm özü-özünü tərbiyə etmək, özü-özünə nəzarət etmək! Axı içində Allah xofu və qanuna hörmət olan hər kəs belə də etməlidi. Az qala yadıma sovet dönəminin şüarı düşür:

– Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!

Əslində, belə də olmalıdı. Hamımız bir-birimizin haqqını gözləsək, qorusaq, onda həqiqətən yaşamaq gözəl olar.

Biz üzü dağlara tərəf qalxırıq. Qarşıdakı mənzərə yavaş-yavaş məni öz aurasına alır. Hiss edirəm ki, Əshabi-Kəhfə yaxınlaşırıq. Böyük bir meydança və xüsusi xətlərlə işarələnmiş avtomobil yerləri. Hətta bu yüksəklikdə də hər kəs avtomobilini harada saxlayacağını çox gözəl bilir. Kimsə maşını meydanın ortasında atıb getməyib. Biz maşından düşürük. Sürücü:

– Müəllim, mən burda bir çay sifariş verib sizi gözləyəcəm, – deyir.

Pillələri yavaş-yavaş qalxıram. İlk dəfə olduğum bu yerdə yavaş-yavaş da məni bir qəribə duyğu bürüyür. Hiss edirəm ki, təkcə gördüyüm səliqə-sahman deyil, həm də bu yerin özünün adı, coğrafiyası, görünüşü, bir də yuxarıdan üzüaşağı axıb gələn havası məni elə üzüyuxarı da çəkib aparır, sanki ayaqlarım yerdən üzülür. Gördüyüm məscid, qalxdığım dəmir pilləkənlər, sığalladığım qara daş, üst-üstə yığdığım yeddi daş, əllərimi göyə açıb etdiyim dualar, bu ocağın özünə aid izlər, kitablardan oxuduqlarım, eşitdiklərim, duyduğum əfsanələr hamısı bir harmoniya yaradır, sanki filmə baxıram. Və bu an qarşımda dua edən bir nəfərin necə ağladığını görəndə heyrətim daha da artır. Bu insan ağladıqca gözəlləşirdi, elə bil işığa çevrilirdi. Mənə elə gəlirdi ki, bu ocaqda əməlli-başlı günəş doğubdu. İnanın ki, əlimi qayaya necə söykədiyimdən xəbərim olmadı. Hiss etdim ki, mən bu dünyanın adamı deyiləm və qarşımdakı da mələkdi, arzularımı, dualarımı Tanrıya çatdıracaq mələk! Çox qala bilmədim bu auranın içərisində. Qorxdum ki, günahlarımı da görüb üzümə oxuyar bu mələk… Üzüaşağı qayıtdım. Məni gözləyən sürücü təəccüb və həm də təlaş doğuran bir səslə:

– Müəllim, sizə bir şey olmayıb ki? Bəlkə, təzyiqiniz qalxıb?

Cavab vermədim. Əl çantamdan dəftər-qələmi çıxartdım.

*Bir sirli dünyadı – qapısı dua*
*Açıb əlimizi durduq diz üstə…*
*Bura ümidlərə yuvadı, yuva –*
*Toplanan dərdlərin durduq biz üstə!*

*Könlümüz sehirli işıqla durdu*
*Xoşbəxt anlarını duyduq həyatın…*
*Bu ocaq min illər keçilən yoldur –*
*Gəzdik sevə-sevə onun hər qatın…*

*Gözümüz hər daşda bir tarix gördü*
*Səsimiz sarıldı sərt qayalara…*
*Bizim ləpirləri cığıra hördü –*
*Apardı bu ocaq gör haralara…*

*Əshabi-Kəhfdəki yaşanan zaman*
*Bizə unutdurdu dərdi, ələmi…*
*Elə oradaca əl atıb inan –*
*Çıxartdım cibimdən dəftər, qələmi…*

*Qarşımda Günəşdən nurlu bir çöhrə*
*Sadəcə baxırdı, gülümsəyirdi…*
*Onun baxışı da, təbəssümü də –*
*Çiçək qönçəsində – gül üstə idi!*

*İçimdən bir ılıq meh əsdi keçdi*
*Titrəyən dizimi tutub saxladım…*
*Ürəyim elə bil nə isə içdi –*
*Özüm də bilmədim nədən ağladım…*

*Heyrət güc gəlmişdi, yoxsa ki, inanc*
*Anlaya bilmirdim, çözə bilmirdim…*
*Günəşdən də nurlu çöhrə önündə –*
*Dayana bilmirdim, dözə bilmirdim!*

*Əsrlər yaşayıb bir an içində*
*Görüb möcüzəsin, duydum qüdrətin…*
*Ümidə büküldüm mən öz içimdə –*
*Qalmadı səcdədən başqa cürətim…*

Başımı qaldıranda gördüm ki, sürücü artıq mənə iki stəkanda çay süzüb. Biri kəklikotu çayıdı, biri də adi… Görünür, soruşub mane olmaq istəməyib. Süzüb ki, hansını istəsə, ondan içsin. Mən əlimi kəklikotu çayı süzülmüş stəkana tərəf uzatdım… O da gülümsədi, mən də. Ayağa qalxıb buranı tərk etmək istəyəndə sürücü hələ hava limanında etdiyim ricanı mənə xatırlatdı:

– Müəllim, nə qədər istəsəniz dərman otları ala bilərsiniz…

Mən kəklikotu və çiçəklər satan oğlana yaxınlaşdım…

**Əbülfət MƏDƏTOĞLU**
***Əməkdar jurnalist, şair, publisist***
***“Ədalət” qəzeti, 20 sentyabr 2016-cı il***

# Təhsilə qayğı Azərbaycanın işıqlı gələcəyinə xidmətdir

## *Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəb uğurları ilə seçilir*



*Bu, bir həqiqətdir ki, millət təhsillə irəli gedir. Məhz təhsillə hər bir xalqın milli şüuru artır, intellektual potensialı yüksəlir.*

Ümummilli liderin ***“İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb, orta ixtisas məktəbi, yaxud da ki, orta təhsil məktəbi – bunlar xüsusi yer tutmalıdır”***, – konseptual göstərişinin bəhrəsi bu gün muxtar respublikanın bütün şəhər və kəndlərində ucaldılan, maddi-texniki bazası gücləndirilən təhsil ocaqlarında təsdiqini tapır.

Ulu öndərimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikada da təhsil quruculuğu vüsət götürdü və yeni məktəb binalarının inşasına başlanıldı, təhsil ocaqlarının maddi-texniki bazaları gücləndirildi. Bu qayğıdan 2007-ci ildə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbinə də pay düşdü. Belə ki, məktəbin binası yenidən qurularaq qapılarını müəllim və şagirdlərin üzünə açdı. 1404 şagird yerlik müasir standartlara uyğun şəkildə inşa olunmuş məktəb binasının açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyev iştirak etdi. İllər sübut etdi ki, bu qayğı öz bəhrələrini verir. Belə ki, əgər 2006-2007-ci tədris ilində məktəbi bitirən 76 məzundan 34-ü müxtəlif ali məktəblərə daxil olmuşdusa, 2015-2016-cı tədris ilində məktəbi bitirən 56 məzundan 51-i ali məktəblərin tələbəsi adını qazanıb. Məzunlardan 8-i 500-700 intervalında, o cümlədən 4-ü 600-700 intervalında bal toplayıb. Yüksək göstərici qazanmış məzunlardan 674 balla Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasına qəbul olunan Sona Əliyeva və 641 balla həmin fakültəyə daxil olan Nərmin Zeynalova bildirdilər ki, məhz gözəl şəraitə malik məktəbdə təhsil almağımız arzularımızı reallığa çevirib.

Məktəbin direktoru Samir Əsgərovdan öyrəndik ki, hazırda burada 1070 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 151 müəllim məşğul olur. Məktəbdə elektron lövhəli siniflər, internetə qoşulmuş kompüter otaqları, fənn kabinələri, laboratoriyalar, zəngin kitabxana, idman zalı var. Həmişə fənn olimpiadalarında, viktorinalarda, testsınaq imtahanlarında məktəbin şagirdlərinin yüksək bal toplamaları təhsil ocağının uğurları sırasındadır.

Məktəbin X sinfində oxuyan əlaçı şagird Anar Mikayılov dedi ki, ibtidai təhsilimə əvvəlki məktəbdə başlamışam. İndi isə belə gözəl məktəbdə oxuyuram. Niyə də yaxşı oxumayım? Bizə hər cür şərait yaradılıb. Yoldaşlarımla çalışırıq ki, dərslərimizi yaxşı oxuyub, hərəmiz bir ixtisasa yiyələnib dövlətimizə xidmət edək.

Təhsilin əsası ibtidai sinifdə qoyulur desək, yanılmarıq. Bu mənada, həmsöhbət olduğum vəlideynlər ibtidai siniflərdə dərs deyən hər bir müəllimin əməyini yüksək qiymətləndirdilər.

Məktəbdə keçirilən şahmat dərsləri ilə də maraqlandıq. Öyrəndik ki, uşaqların zehni inkişafında böyük əhəmiyyət kəsb edən şahmata maraq böyükdür. Məktəbdə şahmat dərsini 7 müəllim tədris edir. Onlar bu oyunun sirlərini şagirdlərə öyrətmək üçün bütün imkanlarını səfərbər ediblər. Bu da öz bəhrəsini verməkdədir. Məktəbin şagirdlərindən Sadiq Məmmədov, İlkin Rəsulov Bakı şəhərində və Malayziyada keçirilən şahmat yarışlarında Naxçıvanı təmsil ediblər. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalında da adları çəkilən bu şahmatçılar iştirak ediblər.

Məktəbdən ayrılan zaman dayanıb bir daha təhsil ocağının səliqəli həyətinə, yaşıllığına, müasir binasına baxıram. Düşünürəm ki, bəli, qısa zaman kəsiyində ölkəmizdə möhtəşəm məktəb binalarının inşa olunması ulu öndərin təhsil quruculuğu siyasətinin ardıcıl, məqsədyönlü şəkildə həyata keçirilməsinin bariz nümunələridir. Bu isə təhsildə uğurlarla nəticələnir. Elə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdəki kimi. Burada da ölkənin gələcəyi üçün savadlı gənclər yetişdirilir. Təhsil müəssisəsinin təcrübəli müəllimləri biliklərini səfərbər edib yalnız bir məqsədə yönəldiblər: təhsildə uğura doğru.

**✍ Hafizə ƏLİYEVA**

*Bu günlərdə Çex Respublikasının Caritas-Olomouk Sosial İş Kollecinin əməkdaşları Tereza Malokova və Lenka Gaaman Naxçıvan Dövlət Universitetində olublar.*

# Caritas-Olomouk Sosial İş Kollecinin əməkdaşları Naxçıvan Dövlət Universitetində olublar

Qonaqlar Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin müəllim və tələbələri ilə görüşüblər. Görüşün məqsədi universitetlə tanışlıq, universitetdə Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə fikir mübadiləsi aparmaqdan ibarət olub. Təqdimatla çıxış edən qonaqlar təmsil etdikləri kollecin yaranma tarixindən və inkişaf yolundan, burada tədris prosesinin və tələbələrin asudə vaxtının səmərəli təşkilindən danışıblar.

Bildirilib ki, Caritas-Olomouk Sosial İş Kolleci tələbələrinə xeyriyyə və sosial iş, sosial və humanitar iş proqramlarını təqdim edir.

Vurğulanıb ki, Caritas-Olomouk Sosial İş Kollecində təhsilin üstünlükləri ondan ibarətdir ki, burada müəllim mübadiləsi, tələbələrin xaricdə iş stajı və pedaqoqların beynəlxalq konfranslarda iştirakı, kollecdə xarici qonaqların dərslərinin keçirilməsi işi yüksək peşəkarlıqla təşkil olunur. Tədris müəssisəsi dünyanın dörd qitəsində 40-dan çox ölkənin təşkilatları ilə sıx əməkdaşlıq edir. Kollecin fəaliyyəti beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən Erasmus, Leonardo da Vinci kimi bir sıra layihələrin, həmçinin kiçik qrant layihələrinin və sazişlərin hesabına maliyyələşdirilir.

**Nərmin CABBAROVA**

*Teatr elə bir aləmdir ki, səhnə həyatının emosiyasını bir dəfə dadanlar uzun müddət ondan ayrıla bilmirlər. Bu adamların əksəriyyəti özünü bu aləmə həsr edir, onunla yaşayır, həyatın bədii inikası olan səhnəni sevərək onu müqəddəs sayır. Azərbaycan mədəniyyətində özünəməxsus yeri olan Naxçıvan Dövlət Musiqili Dram Teatrında da bu cür sənətkarlar, aktyorlar həmişə olub və gələcəkdə də olacaqdır.*

## Səhnədə yaşanan aktyor ömrü



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ömrünün 33 ilini səhnə həyatına həsr edən Azərbaycan Respublikasının Əməkdar artisti Əli Əliyev bu günlərdə 60 yaşını sevimli kollektivi ilə birlikdə qeyd etdi. 1956-cı il sentyabrın 20-də Culfa rayonunun Xanəgah kəndində anadan olan Əli Əliyev 1983-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram və kino aktyoru fakültəsini bitirib. Həmin illərdə bu universitetdə oxumaq ürəyində sənət sevgisi olan hər bir gəncin arzusu idi. Çünki Azərbaycanda kino və teatrın inkişafı ötən əsrin 70-80-ci illərində özünün ən yüksək zirvəsinə çatmışdı. O zaman Azərbaycana rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyev bu sahə ilə şəxsən maraqlanır, mədəniyyətimizi keçmiş SSRİ-də və dünyada uğurla təbliğ edirdi. Sənət adamları yaxşı bilir ki, o vaxtlar Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram və kino aktyorluğu ixtisasına daxil olmaq və oranı bitirmək çox çətin idi. Ölkə səviyyəsində istedadlı olan və aktyor olmaq istəyən bütün gənclərin hədəfi bu ixtisas idi. Bu ixtisasa qəbul da çox məhdud sayda aparılırdı.

Əli Əliyev də bu azsaylı, istedadlı gənclərdən biri kimi Dram və kino aktyorluğu ixtisasına yiyələnəndən sonra doğma Naxçıvan teatrına gəlib. 1983-cü ildən sonra bu teatra gələn tamaşaçılar yeni bir istedadın ifasında müxtəlif rollara maraqla tamaşa edirdilər. İlk rolu Cavid Poeziya Teatrında Hüseyn Cavidin "Ana" faciəsində İzzət olub. Sonra isə elə həmin teatrda hazırlanan "Mənim tanrım gözəllikdir, sevgidir" adlı kompozisiyada eyni vaxtda Şeyx Sənan, Kor Ərəb, Yusif kimi müxtəlif obrazları canlandırıb.

Aydın qaltanlı səsə, səlis nitqə malik olan Əli Əliyev ona inanan rejissorların etimadını doğrulda bilib. Nəticədə isə çox sevdiyi və vurğunu olduğu səhnədə bir-birindən maraqlı tərzdə oynanılan rolların estafeti başlayıb. Turan Oflazoğlunun "Dəli İbrahim"ində Dəli İbrahim, Cəlil Məmmədquluzadənin "Anamın kitabı"nda Rüstəm bəy, Sofoklın "Elektra"sında Egist, Səməd Vurğunun "Fərhad və Şirin" dramında Xosrov, Həmid Arzulunun "Əlincə qalası"nda Topal Teymur, Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" əsərində Nəriman Nərimanov Əli Əliyevin sənət qalereyasında yaratdığı obrazların kiçik bir hissəsidir. İndiyədək 60-dan artıq müxtəlif səpkili rollar oynayan peşəkar aktyor həmişə bu obrazlara öz emosiyası və münasibətini də qatmaqla təsiredici, inandırıcı rollara imza atıb. Əli Əliyev daha çox xarakterik və tarixi şəxsiyyətlərin rollarını canlandırmağa üstünlük verir. Buna onun geniş mütaliəsi, dünyagörüşü, savadı, həm də zahiri görkəmi imkan yaradır. Naxçıvan tamaşaçısı aktyorun ifasında bir neçə tamaşada Nəriman Nərimanovu ("Araz sahilində doğan günəş", "Nadanlıq və ya qəfil telefon zəngi", "Ultimatum"), Mirzə Cəlili ("Sizi deyib gəlmişəm", "Mirzə Cəlil taleyi"), Mixail Qorbaçovu ("Qurtuluş dastanı"), Kərim xan Zəndi ("Ağa Məhəmməd Şah Qacar") görüb. Tarixi şəxsiyyətlərin həyatdakı obrazlarına olduğu kimi bənzəyən rollar isə tamaşaçının yaddaşında uzun müddət silinməz izlər buraxır. Hətta bəzən ona "Nəriman Nərimanov" da deyə müraciət edirlər.

Amma özünün həmişə yada saldığı obraz 1985-ci ildə teatrda səhnələşdirilən A.Dudarevin "Astana" tamaşasında oynadığı Andrey Buslaydır. Bir zamanlar sərxoşluğa qarşı aparılan mübarizənin zəminində yazılan bu əsərdə Əli Əliyevə əyyaş bir rus obrazını canlandırmaq tapşırılır. Maraqlıdır ki, heç vaxt spirtli içki içməyən aktyor elə bir obraz yaradır ki, o zaman, sözün əsl mənasında, səs-küyə səbəb olur. "Bu tamaşadan sonra hətta yüksək vəzifəli şəxslər mənə sifariş göndərirdilər ki, sizinlə bir süfrədə oturmaq istəyirik. Bir dəfə rayonların birində konyak zavodunun direktoru bu tamaşaya baxandan sonra bizə ziyafət verdi. Biləndə ki mən, ümumiyyətlə, spirtli içki içmirəm, təəccübünü gizlədə bilmədi". Əli müəllim o günləri belə xatırlayır. Bu tamaşa eyni vaxtda Akademik Milli Teatrın aktyorlarının ifasında Azərbaycan Dövlət Televiziyası ilə nümayiş olunub. Andrey Buslayı Xalq artisti Yaşar Nuriyev oynayırdı. Amma teatrşünaslar Əli Əliyevin yaratdığı obrazın daha dolğun və inandırıcı olduğunu təsdiq ediblər.

Çəkilən bu zəhmətlər öz bəhrəsini verib. Əli Əliyev 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 2008-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb. 2006-cı ildə Prezident mükafatçısı olub.

Bu günlər 60 yaşını qeyd edən Əli Əliyevin səhnəyə sevgisi, sənətə olan marağı illər ərzində daha da artıb. İndi yaşına uyğun obrazları ifa etməklə yanaşı, onunla tərəf-müqabili olan gənclərə peşəkar məsləhətlər verməyi də unutmur. "Bizi öyrədiblər, biz də bu təcrübəni özümüzdən sonrakılara verməliyik. Əsas odur ki Naxçıvan teatrının klassik sənət ənənəsi gələcək nəsillərə olduğu kimi ötürülsün" – bu, onun sənət amalıdır.

**Səməd CANBAXŞIYEV**

## Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlıq şagirdlərin marağına səbəb olub

*Sədərək rayonunun Heydərabad qəsəbə tam orta məktəbi şagirdlərinin rayon Tarix-Diyarşünaslıq Muzeyinə ziyarəti təşkil olunub.*



Sədərək Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin və Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə baş tutan tədbirin məqsədi yeniyetmə və gənclərin tariximizi əks etdirən eksponatlar haqqında ətraflı məlumatlandırılması, tarixi keçmişimizin unudulmaması və gələcək nəsillərə çatdırılması olub.

Muzeyin bələdçisi bildirib ki, 1995-ci ildən fəaliyyət göstərən rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün Heydərabad qəsəbəsində 2010-cu ildə yeni bina ucaldılıb. 2002-ci ildə muzeyin 4 bölməsi, 613 eksponatı olub. Hazırda isə eksponatların sayı 2 mini ötüb. Muzeyin ekspozisiyasında 16 bölmədə 1200-dən çox eksponat nümayiş etdirilir.

Qeyd olunub ki, muzeydə qədim və orta əsrlərə aid zəngin nümunələr, nadir əşyalar çoxdur və onların hamısı rayon ərazisində yerləşən qədim yaşayış məskənlərində – Kərki nekropolunda, Validağ ətəklərində, "Sədərək qalası", "Kültəpə", "Şəhər yeri", "Bulaq başı", "Karvansara" adlanan yerlərdə aparılan arxeoloji qazıntılar zamanı tapılıb. Muzeyin arxeologiya və etnoqrafiya bölməsində nümayiş etdirilən Tunc dövrünə və orta əsrə aid eksponatlar – daş baltalar, çapacaqlar, küpə, çölmək, həvəngdəstələr, dən daşları və digər nümunələr Sədərək torpağında hələ eramızdan əvvəl II minilliyin sonu, I minilliyin əvvəllərindən yaşayış olduğunu təsdiqləyir. Bölgənin qədim dövründən bu günədək olan tarixini özündə əks etdirən dəyərli arxeoloji tapıntılar, mənəvi dəyərlərimizin parlaq təcəssümü olan mədəniyyət nümunələri, xalq tətbiqi sənət əsərləri, numizmatik materiallar, heykəltəraşlıq, qrafika, Erkən Dəmir dövrünə aid keramika məmulatları, soyuq silahlar, misgərlik nümunələri muzeydə özünə yer alıb. Bölmələrdə nümayiş olunan dulusçuluq, zərgərlik, toxuculuq məmulatları, dekorativ bəzək əşyaları qədim İpək Yolu üzərində yerləşən ulu yurdda sənətkarlığın, mədəniyyətin inkişafından xəbər verir. Buradakı əkinçilik alətləri – xış, kotan, vəl, mərəndi, mərgüz, göndən hazırlanmış xəlbir, nehrə və sair əşyalar sədərəklilərin hələ qədim zamanlardan əkinçiliklə, maldarlıqla məşğul olduqlarını göstərir.

Bölgənin flora və faunasından bəhs edən bölmə də öz zənginliyi ilə diqqəti çəkir, bu yurdun əsrarəngiz təbiəti haqqında dolğun təəssürat yaradır. Muzeydə "Sədərək" sözünün etimoloji mənası, elmi şərhi barədə bilgilər də yer alıb. "Kitabi-Dədə Qorqud"da adıçəkilən Sədərəyin Uşun oğlu Səkrəyin adından yaranma ehtimalı, türk səyyahı Övliya Çələbinin, fransız səyyahı Jan Şardenin XVII əsrdə Sədərəyin çox böyük yaşayış məntəqəsi olması, geniş meyvə bağları, abad meydanları, yaraşıqlı binaları, məscidləri, dükan-bazarı barədə məlumatları da diqqət çəkir.

"Sədərək qeyrət qalasıdır" bölməsində isə 1990-cı illərdə 14 dəfə erməni təcavüzünə məruz qalan Sədərəyin ağır həyatı, mərdliklə müdafiə olunması canlı eksponatların dili ilə buraya gələnlərə çox həqiqətləri danışır. Onlar bu torpaq uğrunda canını fəda edən 108 şəhid, o cümlədən 52 sədərəkli şəhid haqqında muzeydə dolğun məlumat alırlar.

Sədərək rayonunun son illərdəki sosial-iqtisadi inkişafını əks etdirən bölmə də şagirdlərin diqqətini cəlb edib. Muzeyin foyesində isə rayon mərkəzi Heydərabad qəsəbəsinin dünəni və bu gününü əks etdirən stend asılıb.

Muzeylə tanışlıq şagirdlərin marağına səbəb olub.

**Rauf ƏLİYEV**

## *"Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri"* mövzusunda növbəti kurs təşkil olunub

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəssisələrdə kadrlar üzrə mütəxəssislərin biliklərinin artırılması məqsədilə maarifləndirici kursların təşkili davam etdirilir.*



Sentyabr ayının 19-da Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" mövzusunda növbəti kursa başlanılıb. Kurs beş gün davam edəcək.

Kursa Naxçıvan Şəhər Elektrik Şəbəkəsi, Lift Təmiri və İstismarı, Yaşıllaşdırma, İstilik Təsərrüfatı, Sanitar-Təmizlik, Su-kanalizasiya idarələri, həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Kəhrizlər, Maşın-Mexanizmlərin, Hidrotexniki Qurğuların Təmiri və Texniki Nəzarət, Subartezian idarələri və Kəngərli Rayon Suvarma Sistemləri İdarəsi üzrə, ümumilikdə, 10 mütəxəssis cəlb edilib.

Kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən "Əmək müqaviləsinin bağlanmasının əsasları və qaydaları", "Əmək müqaviləsinin nümunəvi forması, onun düzgün doldurulması və ona dəyişikliklərin edilməsi qaydaları", "Əmək müqaviləsinə xitam verilməsinin əsasları və qaydaları", "Əmək müqaviləsi üzrə işəgötürən və işçinin hüquq və vəzifələri", "Əmək münasibətləri zamanı digər sənədləşmə işlərinin qanunamüvafiq həyata keçirilməsi" və başqa mövzular tədris olunur.

Kursun yekununda iştirakçıların bu sahədə aldıqları biliklər yoxlanılacaq.

**Hafizə ƏLİYEVA**

## Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi *dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir*

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu cari ilin oktyabrın 3-dən noyabrın 1-dək aparılır. İştirak etmək istəyənlər aşağıdakı sənədləri nazirlikdə yaradılmış komissiyaya təqdim etməlidirlər:

*1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir);*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd (ağ fonda) fotoşəkil;*
*3. ali təhsil barədə diplom (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada notarifikasiya olunmalıdır);*
*4. əmək kitabçasının əsli və ya təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə);*
*5. şəxsiyyət vəsiqəsi;*
*6. hərbi bilet.*

Sənəd qəbulu zamanı əyani şöbədə ali təhsil alan, hərbi xidmətdə olmayan, ali təhsilə malik olmayan, yaşı 35-i keçmiş, məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Müsabiqədə yalnız hərbi xidmətə tam yararlı (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla), iqtisadiyyat, idarəetmə, hüquq və beynəlxalq iqtisadi münasibətlər üzrə ixtisas sahələrindən birinə malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə yalnız aşağıda göstərilən 31 sayda vakant yer üzrə iş təklif ediləcəkdir:

*1. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi – 15 yer;*
*2. Naxçıvan Şəhər Vergilər İdarəsi – 2 yer;*
*3. Şərur Rayon Vergilər Şöbəsi – 2 yer;*
*4. Ordubad Rayon Vergilər Şöbəsi – 4 yer;*
*5. Kəngərli Rayon Vergilər Şöbəsi – 3 yer;*
*6. Şahbuz Rayon Vergilər Şöbəsi – 3 yer;*
*7. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer.*

Qeyd: ***Müsabiqəni müvəffəqiyyətlə keçmiş hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar.***

Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

***Əlaqə telefonu: 545-68-04***

***İtmişdir***

Yusifov Nəcəf Budaq oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 705